“Maarifpərvərlik”
Azərbaycan Gənclərinin
İctimai Yardım Assosiasiyası
(MAGİYA) ictimai birliyi

“Education”
Public Support Association
of Youth of Azerbaijan
(EPSAYA) public union

Azərbaycan Respublikası, Lənkəran şəhəri, AZ 4200, Heydər Əliyev prospekti 3,
İnternet səhifəsi: www.epsaya.az, E-mail: info@epsaya.az, Telefon: (0 51) 814 44 42

# MALİYYƏ HESABATI – 2024

## Qısa təfsilat

31 mart 2005-ci il tarixində Lənkəran şəhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan ***“Maarifpərvərlik” Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi*** 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Birliyin fəaliyyət dairəsi Azərbaycan Respublikasının ərazisini əhatə edir.

Məqsədi və fəaliyyət predmeti gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji və sair istiqamətlərdə maarifləndirmə və məlumatlandırma işinin aparılmasından ibarət olan MAGİYA ictimai birliyinin vəzifələri yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.

## Bank rekvizitləri

MAGİYA ictimai birliyinin bank rekvizitləri aşağıdakı cədvəldə verilmişdir:

***MAGİYA ictimai birliyinin bank rekvizitləri***

| № | Kassa | “YELO” Bank Açıq Səhmdar Cəmiyyəti, “Lənkəran” filialı |
|---|---|---|
| 1 | Bank hesabı milli valyuta ilə (AZN) | AZ43NICB01302043080001A40090 |
| 2 | Bank hesabı xarici valyuta ilə (EUR) | AZ09NICB01302043080003E40190 |
| 3 | Bank hesabı xarici valyuta ilə (USD) | AZ41NICB01302043080002U40190 |

**Donorlar, qrantlar və layihələr**

Cari il ərzində MAGİYA ictimai birliyinin donorları, əldə etdiyi qrantlar və həyata keçirtdiyi layihələr aşağıdakı cədvəldə verilmişdir:

***MAGİYA ictimai birliyinin donorları, qrantları və həyata keçirtdiyi layihələr***

| № | Donorun adı | Qrantın məbləği (AZN) | Layihənin adı | Layihənin müddəti |
|---|---|---|---|---|
| 1 | Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi **(ARQHTDDA)** | 9 000,00 | "Gənc ailələrdə boşanmaların artması – cəmiyyətin problemi kimi" | 01 iyun – 31 avqust 2024-cü il |
| 2 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi **(ARGİN)** | 7 500,00 | ""COP29" və "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində region gənclərinin ekoloji maarifləndirilməsi" | 15 sentyabr – 15 dekabr 2024-cü il |
| ***Cəmi*** | | ***16 500,00 manat*** | | |

MAGİYA ictimai birliyi cari il ərzində ölkədə ümumilikdə 2 yeni layihəni icra etmişdir. Layihələrin (qrantların) ümumi dəyəri ***16 500,00*** (on altı min beş yüz manat sıfır qəpik) ***manat*** məbləğində olmuşdur.

Cari il ərzində MAGİYA ictimai birliyinin donorları və əldə etdiyi qrantlar aşağıdakı diaqramda verilmişdir:




**Daxilolmalar (mədaxil) və xərclər (məxaric)**

Cari il ərzində MAGİYA ictimai birliyinə ümumi daxilolmalar və xərcləmələr aşağıdakı cədvəldə verilmişdir:

***MAGİYA ictimai birliyinə ümumi daxilolmalar və xərcləmələr***

| **№** | **Xərclərin təyinatı** | **Məbləğ (AZN)** |
|---|---|---|
| 1 | Nəşr materialları (rolap, sertifikat və flayer) | 516,00 |
| 2 | Ofis üçün dəftərxana resursları | 30,00 |
| 3 | Mobil rabitə xərci | 60,00 |
| 4 | Tədbirlərin təşkili (zalın icarəsi, çay-kofe fasiləsi, nahar, şam, gecələmə və dəftərxana resursları) xərcləri | 5344,00 |
| 5 | İnformasiya yayımı xidməti | 600,00 |
| 6 | Mütəxəssislərin xidmət haqqları (foto və video çəkilişlər, videomontaj) | 2200,00 |
| 7 | Ekspertlərin (hüquqşünas, psixoloq və təlimçi) xidmət haqqları | 1650,00 |
| 8 | Mühasibin əmək haqqısı | 2085,00 |
| 9 | Layihə direktorunun əmək haqqısı | 2910,00 |
| 10 | Əmək haqlarından DSMF-na ayırmalar, icbari sığorta (həyat sığortası), işsizlikdən sığorta və icbari tibbi sığorta | 1052,12 |
| 11 | Bank xərcləri | 52,88 |
| ***Ümumi məxaric (xərcləmələr)*** | | ***16 500,00*** |

| | |
|---|---|
| ***Ümumi mədaxil (daxilolmalar)*** | ***16 500,00*** |
| ***2024-cü ildən qalan qalıq*** | ***00,00*** |

Cari il ərzində MAGİYA ictimai birliyinin ümumi xərcləri aşağıdakı diaqramda verilmişdir:

